

*Azərbaycan teatrında bir neçə qüdrətli gülüş ustasının adı dilimizin əzbəridir. Cahangir Zeynalov, Mirzəağa Əliyev, Əliağa Ağayev, Lütfəli Abdullayev kimi korifey sənətkarların yolunu davam etdirən gözəl bir sənətkarımız da vardır ki, o da sözün əsl mənasında səhnəmizin Aslanı Səyavuş Aslandır. Səyavuş bir aktyor kimi ifa etdiyi hər bir obrazın psixologiyasını dərindən dərk etdiyi üçün tamaşaçılar tərəfindən sevilir. O, həm də rejissorla işləməyi bacaran həssas bir aktyordur. "Aktyor bir yaradıcı kimi rejissor üçün əsl materialdır"- deyən B.Y. Zaxava tamaşanın düzgün həllində aktyorun böyük rolundan söhbət açaraq yazmışdır:*

*"Deyirlər ki, aktyor, rejissor sənətinin başlıca materialıdır. Bu doğrudur, amma tam dəqiq deyil. Axı, aktyor canlı insandır, son dərəcə mürəkkəb bir varlıqdır: onun fikirləri, hissləri, duyğuları var. Aktyor yalnız material deyil, həm də yaradıcıdır" (1, s.16).*

# Səhnəmizin sevimli aktyoru

Böyük rus rejissoru Zaxavanın dediyi kimi "Aktyor həm də yaradıcıdır". Bu "yaradıcı" anlayışı Səyavuş Aslanın ən başlıca cəhətlərindən biridir. Rejissorlar onunla işləyəndə heç bir çətinlik çəkmirlər. Çünki o, bir aktyor kimi öz üzvi təbiətini yüksək peşəkarlıqla obrazın fiziki və psixoloji vəziyyətlərinə çevirməyi bacarır və rejissorun arzu etdiyi əsl materiala çevrilə bilir.

"Aktyor rejissorun ən yaxın köməkçisidir"- deyən Mehdi Məmmədov tamaşanın uğurunda aktyor ifasına böyük önəm verərək yazırdı ki: "Tamaşanın yaranmasında doğru, inandırıcı və ifadəli aktyor işi böyük əhəmiyyət daşıyır. Aktyor oyunu sönük və zəif olduqda tamaşaçı bütün qalan cəhətlərə, ən zəngin tərtibata və ən cazibəli musiqiyə qarşı belə laqeyd qalır" (2, s.99).

Tanınmış teatr xadimi, professor Mehdi Məmmədovun aktyor ifasına verdiyi belə böyük qiyməti biz tamaşalarımızın tamaşaçılar tərəfindən sevilməsində xüsusi xidmətləri olan Səyavuş Aslan üçün də söyləyirik. Səyavuş Aslanın ifa etdiyi hər bir obraz, xarakterindən, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq tamaşaçıların diqqət mərkəzində olur. Onun sənətinə yüksək qiymət verən xalq yazıçısı Elçinin fikirləri də bu baxımdan maraqlıdır: "Səyavuş Aslan səhnədə iztirab çəkməyi bacaran gülüş ustası, böyük aktyordur"- deyən dramaturq "Gülərək iztirab çəkən sənətkar"- adlı məqaləsində bu mülahizələrində mərhum dramaturqumuz İlyas Əfəndiyevin aktyor haqqında söylədiyi fikirlərə şərik olduğunu və atası ilə aralarında olan bir söhbəti xatırladaraq yazır:

- "Rejissor olsaydım, bizim teatrda ("bizim teatr" deyəndə o, həmişə Akademik Milli Teatrı nəzərdə tuturdu) "Qağayı"nı, bir də "Kral Lir"i tamaşaya qoyardım. Özü də Lirin rolunu bilirsən kimə verərdim?

Mən əlbəttə maraqla:

- Kimə?-soruşdum.

- Səyavuş Aslana" (3, s.70).

Xalq yazıçısı İlyas Əfəndiyevin aktyora belə böyük inamı, etibarı əlbəttə ki, onun sənətinə yaxın bələdliyindən irəli gəldiyi üçün bu fikirlər çox səmimi və təbiidir. Səyavuş Aslan dramaturqun "Bizim qəribə taleyimiz", "Sevgililərin cəhənnəmdə vüsalı", "Tənha iydə ağacı", "Dəlilər və ağıllılar", "Hökmdar və qızı" kimi əsərlərinin tamaşalarında öz təbii ifası ilə tamaşaçıların diqqətini çəkmiş və bu tamaşaların uğurunda böyük rolu olmuşdur.

Elçin özü də atasının hörmətini qazanan bu böyük sənətkara etibar edərək, "Ah, Paris, Paris….! ", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir" kimi pyeslərində Əsədulla, Baş redaktor, Kişi kimi obrazları qələmə alarkən Səyavuş Aslanı nəzərdə tutmuşdur.

Elçin özünün "Gülərək iztirab çəkən sənətkar"- adlı məqaləsində atasının "Kral Liri ona vermək" fikrinə münasibətini izah edərək yazır:

"Mənim təsəvvürümdə Səyavuş Aslanın istedadı Mirzəağa Əliyev kimi unudulmaz bir Osip yarada bilərdi, yaxud Şmaqanı, Skapeni, hətta Tartüfü Səyavuşun ifasında (həm də əla ifasında) təssəvvür etmək çətin bir şey deyildir, amma İlyas Əfəndiyevin birdən-birə söylədiyi o fikir mənim üçün düzünü deyim ki, çox gözlənilməz səsləndi.

Səyavuş Aslan və Kral Lir…

Fəhmi olduqca güclü bir Adam olan İlyas Əfəndiyev:

- Heç təəccüb eləmə - dedi - Səyavuşun elə potensional imkanları var ki, heç özünün də bundan xəbəri yoxdur" (həmin məqalədən).

Elçin bu məqalədə Səyavuş Aslanın Cahangir Zeynalov, Hacıağa Abbasov, Mirzəağa Əliyev, Məmmədəli Vəlixanlı, Mustafa Mərdanov, Möhsün Sənanidən gələn ənənələri nəinki davam etdirən bir aktyor, hətta bu ənənələri inkişaf etdirməyə gücü çatan bir sənətkar olduğunu qeyd etmişdir. Elçin onun "komizmin arxasında fundamental dramatikliyin" dayandığını qeyd edərək, aktyorun ifa etdiyi Cabbar ("Sevgililərin cəhənnəmdə vüsalı"), Baş redaktor ("Mənim sevimli dəlim") kimi obrazların komizmi arxasında dayanan iztirabı, dramatizmi diqqətə çatdırmışdır.

Elə bu fikirlər "Mənim ərim dəlidir" tamaşasındakı Kişi obrazı üçün də xarakterikdir. Bu pyesdə Elçin Kişi obrazını rəmzi mahiyyət daşıyan bir surət kimi yaratmışdır. Cəmiyyətdə özünü kişi kimi aparmaq istəyən, evində, ailəsində əsl kişi həyatı yaşamaq istəyən sağlam düşüncəli bir insanın başına gələn faciəyə gülüş donu geyindirən dramaturqun fikirlərini səhnədə həssaslıqla duyaraq doğruldan sənətkarın ifası tamaşaçını dərin fikirlərə sövq edir. Bu obrazın timsalında Səyavuş cəmiyyətdə Kişi ləyaqətini itirmək istəməyən insanların çəkdiyi iztirab və mənəvi zorlanmanın ümumi mənzərəsini yaratmışdır.

"Sevgililərin cəhənnəmdə vüsalı" tamaşasında Səyavuş Aslanın ifa etdiyi Cabbar obrazı ilə "Mənim ərim dəlidir" tamaşasındakı Kişi obrazı ideya etibari ilə bir-birinə yaxın obrazlardır. Cabbar- vicdanlı, sədaqətli bir insan olsa da, Stalin sisteminin tələblərinə acizanə boyun əyməklə, öz faciəsini yaşadığı kimi, "Mənim ərim dəlidir" tamaşasındakı Kişi obrazı da arzu və amallarını ailəsinin istəyinə qurban verən, cəmiyyətin yazılmayan qanunları qarşısında aciz qaldığından xəcalət çəkən bir kişinin faciəsini yaşayır. Səyavuş Aslan hər iki obrazı böyük məharətlə ifa edərək, tamaşaçıları həm güldürmüş, həm də düşündürmüşdür.

Səyavuş Aslanın bu böyük aktyor potensialından istifadə edərək ona "Hamlet" pyesinin tamaşasında Poloni obrazını tapşıranda əvvəlcədən bilirdim ki, bu çətin və ziddiyyətli obrazı ona etibar etmək mümkündür. Düzdür, o, əvvəl bu obrazı ifa etmək istəmədi. Lakin sonrakı nəticədən həm aktyor özü, həm də mən çox razı qaldıq. Poloni obrazının daxili aləmi, saray qayda-qanunlarına boyun əyən, öz şəxsi mənafeyini qorumağa çalışan, yeri gələndə öz övladlarının xeyiri üçün cinayətlərə belə rəvac verməkdən çəkinməyən çox hiyləgər, tədbirli, ehtiyatlı bir vəzir obrazını yaradarkən biz Səyavuş Aslanla heç bir çətinliklə üzləşmədik. O, vəziyyəti, rejissor fikrini tez qəbul edən bir aktyor olduğu üçün onunla əməkdaşlıq etmək çox asan və maraqlıdır. Arzum budur ki, biz Səyavuş Aslanla yeni-yeni tamaşalarda çalışaq. Bəlkə "Kral Lir" də qismət oldu… Allah qoysa, arzularımız çin olar…

***Azər-Paşa NEMƏT,***
***rejissor, Azərbaycan Respublikasının xalq artisti, Teatr Xadimləri İttifaqının katibi***

Ədəbiyyat.

1. B.Y. Zaxava "Aktyor və rejissor sənəti", Bakı, "Maarif", 1984.
2. M.Məmmədov "Rejissor sənəti", Bakı, "Maarif" 1971.
3. Rafiq Rəhimli "Həmişə təravətli sənət", Bakı, "Nağıl evi", 2005